

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 65 (23.227)

*10 aprel 2019-cu il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 9-da Respublika Perinatal Mərkəzində Azərbaycanın 10 milyonuncu sakini Mehriban Həsənovanın valideynləri Rauf Həsənov və Nigar Ocaqova ilə görüşüblər.

Dövlətimizin başçısı və xanımı uşağın valideynləri ilə söhbət ediblər.

Prezident İlham Əliyev deyib ki, aprelin 6-da sizin həyatınızda, eyni zamanda ölkəmizin həyatında çox əlamətdar hadisə baş verib. Sizin körpəniz ölkəmizin 10 milyonuncu sakinidir. Sizi təbrik edirəm, sağlam böyüsün, sizi sevindirsin, xalqımızı sevindirsin. Bu, tarixi hadisədir. Bu gözəl hadisə münasibətilə Azərbaycan xalqını təbrik edirəm.

Dövlətimizin başçısı qeyd edib ki, əhalimiz artır. Yadımdadır, 9 milyonuncu sakin 2010-cu ildə dünyaya gəldi. Doqquz il ərzində əhalimiz 1 milyon artdı. Amma son 15 il ərzində əhali 1,7 milyon nəfər artdı. Bu, bizim gücümüzü, ölkəmizin qüdrətini artırır. Eyni zamanda onu göstərir ki, ölkəmizdə sosial-iqtisadi inkişaf gedir. Çünki əhalinin artımı birbaşa sosial vəziyyətlə bağlıdır.

Prezident İlham Əliyev Həsənova Mehriban Rauf qızının sertifikatını valideynlərinə təqdim edib. Dövlət tərəfindən onlara mənzil hədiyyə olunduğunu, Azərbaycanın 10 milyonuncu sakininin hesabına vəsait köçürüldüyünü bildirib.

Valideynlər göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri İndoneziyanın ölkəmizdəki səfiri ilə görüşüb





Aprelin 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İndoneziya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hüsnan Bəy Fanani ilə görüşüb.

Ali Məclisin Sədri səfiri yenidən Naxçıvanda görməkdən məmnunluğunu bildirib, ötən il İndoneziya nümayəndə heyətinin "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" tədbirlərində iştirakına görə təşəkkür edib. Həyata keçirilən səfərlərin əməkdaşlığın möhkəmləndirilməsinə xidmət etdiyini vurğulayan Ali Məclisin Sədri Azərbaycan-İndoneziya əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini və iqtisadi-ticarət əlaqələrinin genişləndiyini bildirib.

Ali Məclisin Sədri ölkələrimiz arasındakı ikitərəfli münasibətlərdə Naxçıvan Muxtar Respublikasının rolunu diqqətə çatdırıb, mövcud imkanların təhsil və turizm əlaqələrinin inkişafına zəmin yaratdığını vurğulayıb.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlıq edən Hüsnan Bəy Fanani muxtar respublikada olmaqdan şərəf duyduğunu qeyd edib. Nuhun vətəni Naxçıvanın 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsinin və "Əshabi-Kəhf"in burada yerləşməsinin muxtar respublikaya səfər edən İndoneziya nümayəndə heyətində dərin təəssürat yaratdığını deyən qonaq ölkəsində Naxçıvana böyük maraq olduğunu bildirib. Səfir muxtar respublika ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiklərini və əməkdaşlıq üçün hazır olduqlarını diqqətə çatdırıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Tacikistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Naxçıvan Dövlət Universitetində olub



Tacikistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Rüstəm Soli Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində də olub. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ali təhsil ocağının strukturu, universitetin yaranma tarixi, keçdiyi inkişaf yolu, buradakı tədris-mədəniyyət mərkəzlərinin fəaliyyəti barədə məlumat verib. Qeyd olunub ki, universitet beynəlxalq əməkdaşlığın inkişafı istiqamətində əhəmiyyətli uğurlar qazanıb.

Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində keçirilən tədbirdə səfir Rüstəm Soli səmimi qəbula görə təşəkkürünü bildirib, diplomatik fəaliyyəti, Tacikistanda həyata keçirilən islahatlar, ölkə təhsilindəki yeniliklər barədə tələbələrə mühazirə deyib. Tacikistanla Azərbaycanın qədim dostluq tarixinə nəzər salan diplomat həmin ənənələrin bu gün də uğurla davam etdirildiyini qeyd edib. Universitetlərarası münasibətlərin inkişaf etdirilməsinin zəruriliyindən danışan səfir bunun üçün Naxçıvan Dövlət Universitetində çox böyük potensialın olduğunu, təhsil və elm sahəsində yeni layihələrin icra edilməsinin əhəmiyyətini vurğulayıb.

Sonra tələbələrin sualları cavablandırılıb.

**Səadət ƏLİYEVA**

***NDU-nun Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## Ekoloji tədbirlər davam etdirilir

Muxtar respublikada ətraf mühitin mühafizəsi, əlverişli ekoloji mühitin saxlanılması, insanların sağlam ətraf mühitdə yaşamasını təmin etmək üçün cari ilin birinci rübündə ekoloji tədbirlər davam etdirilmişdir. Fauna ehtiyatlarının qorunması, qanunsuz ov edilməsinin qarşısının alınması məqsədilə 29 reyd-yoxlama keçirilmiş, 45-dən çox yaşayış məntəqəsində, təbiət ərazilərində monitorinqlər aparılmışdır. Qış fəslində, xüsusilə qar örtüyünün çox olduğu yerlərdə, qoruq, milli park, yasaqlıq ərazilərində və faunanın kompleks məskunlaşdığı digər ərazilərdə biotexniki tədbirlər həyata keçirilmiş, ərazilərə 2500 kiloqram daşduz, 1200 kiloqramdan çox buğda, arpa və meyvə-tərəvəz məhsulları səpilmişdir.

Hidrometeoroloji fəaliyyətin daha da inkişaf etdirilməsi məqsədilə Sədərək rayonunun Heydərabad qəsəbəsində yeni su monitorinq laboratoriyasının tikintisi başa çatdırılmış və avadanlıqların quraşdırılması işi davam etdirilir.

Yaz əkini mövsümündə muxtar respublika ərazisində 350 hektardan çox sahədə əkin aparılması, 108 min müxtəlif meyvə və həmişəyaşıl ting, 710 kiloqram toxum əkilməsi nəzərdə tutulur. Bu məqsədlə əkin mövsümündə 50 hektar sahədə badam, cəviz, ərik, alma, tut, iydə tingləri, 30 hektardan çox ərazidə badamça, yemişan, həmərsin toxumları ilə əkin aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## İlham Əliyev adına Olimpiya-İdman Kompleksində əsaslı şəkildə təmir işləri aparılır

Ölkəmizdə ilk müasirtipli bədən tərbiyəsi və idman müəssisələrindən biri olan Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin əsaslı təmirinə başlanılıb.

Aldığımız məlumata görə, təmirə kompleksin daxilindən başlayan inşaatçılar tərəfindən binanın içərisinin təmir edilməsi, oyun salonunun divarlarına zərbənin qarşısının alınması üçün xüsusi materialdan hazırlanmış qoruyucuların vurulması, yeni işıqlandırma sisteminin qurulması, duşxanaların və binanın



dam örtüyünün yenilənməsi, fasadının təmir olunması, eləcə də havalandırma sisteminin təzələnməsi işləri görüləcək. Buradakı təmir işlərini "Gəmiqaya İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivi həyata keçirir.

**Pərviz HACILI**

# Tarixi həqiqətlər erməni terrorizmini ifşa edir

## Rusiyalı tarixçi alimlə müsahibə

*Bu günlərdə tanınmış rusiyalı alim, tarixçi və hüquqşünas, Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunun fəxri professoru, Avropa Elm və Sənaye Konsorsiumunun (ESIC) qızıl medal mükafatçısı Oleq Kuznetsov muxtar respublikamıza səfər edib. Alimlə "Şərq qapısı" qəzetinin redaksiyasında görüşüb səfərinin məqsədi və Naxçıvan haqqında təəssüratlarını öyrəndik.*

***– Oleq Yuriyeviç, səhv etmirəmsə, bu sizin Naxçıvana üçüncü səfərinizdir…***

– Bəli, Naxçıvana 2014-cü ilin iyulunda və daha sonra isə ötən ilin yanvarında səfərim olub. Əvvəlki səfərlərimlə müqayisədə Naxçıvanın gözəl yazını gördüyüm üçün çox sevinirəm. Burada hər yer gözəldir. İnsanlar, təbiət, şəhər. Bu dəfə səfər proqramı qısa olduğu üçün çox gəzmək imkanımız olmasa da, gördüyüm yerlər məndə dərin təəssüratlar yaratdı. Ən çox isə diyarınızdakı gənclərin hər yerdə gözümə dəyməsini qeyd edə bilərəm. Ölkənizlə çox sıx əlaqəsi olan bir əcnəbi kimi deyə bilərəm ki, naxçıvanlı gənclərin fəal həyat tərzi yalnız paytaxt Bakı ilə müqayisə oluna bilər. Bu isə ümumi inkişafın bir nəticəsi kimi çox mühüm faktdır. Çünki həyatın dinamikası gənclərlə daha çox ölçülür.

***– Siz təkcə Azərbaycanda və Rusiyada deyil, bütün dünyada tanınmış alimsiniz. Araşdırmalarınızı hansı istiqamətlərdə aparırsınız?***

– Məni dünyada, o cümlədən Azərbaycanda, Cənubi Qafqazda və Şərqi Avropada tarixçi kimi tanısalar da, Rusiyada daha çox hüquqşünas kimi mənə müraciət edirlər. Belə ki, tarixçi kimi xalqların tarixi və qarşılıqlı əlaqələrinin öyrənilməsi ilə yanaşı, sovet dövlətinin dağılması ilə hər yerdə olduğu kimi, Rusiyada da hüquqi bazanın formalaşdırılması üçün yeni araşdırmalara ehtiyac var idi. Mən də ikinci təhsilim olan hüquqşünas kimi burada işlər görməyə başladım və müəyyən uğurlar qazandım. Düşünürəm ki, elmi sahədə əldə etdiyim nailiyyətlər, tapıntılar mənim çıxışlarımın əsasında dayanmaqla, həm də gəldiyim nəticələrin obyektiv olaraq qəbuluna imkan verir. Hər halda bunu xoşlamayanlar olsa da.

***– Yeri gəlmişkən, tarixçi kimi sizin əsas araşdırmalarınız erməni terrorizmi və onun fəsadları haqqındadır.***

– Təkcə tarixçi kimi deyil, bir beynəlxalq hüquqşünas kimi də bu problemə qarşı fikir söyləmək, tutarlı arqumentlərlə çıxış etmək mümkündür. Hüquqşünas kimi daha sonra,



ancaq bir tarixçi kimi onu deyə bilərəm ki, bu problem təkcə Azərbaycana, yaxud azərbaycanlılara qarşı deyil, bütün insanlığa, bəşəriyyətə qarşıdır. Erməni terrorizmi elə bir bəladır ki, o, sərhəd, ölkə və ya xalq tanımayan bir fitnə kimi ermənilərin qanına hopub, onların dövlət siyasətinin əsasına çevrilib. Elə ona görə də ermənilər, bayaq qeyd etdiyim kimi, tarixi saxtalaşdırmağa, obyektiv prizmadan çıxış edən tarixçilərin işlərinə kölgə salmağa və hətta onlara hədə-qorxu gəlməyə də çalışırlar. Bu isə təəssüf doğurur. Ancaq dünyanın gözü hər şeyi yaxşı görür və real təhlükələri qiymətləndirir. Elə götürək vətəndaşı olduğum Rusiyanı. Mən 2006-cı ildən başlayaraq bu erməni terrorizmi barədə araşdırmalar aparıb yazılar dərc etdirirəm. Hər şey ondan başladı ki, Rusiya Dövlət Dumasında terrorla mübarizə sahəsində qanun layihəsi üzərində işləmək üçün dəvət olunanda bu sahədə araşdırmalar aparmaq məqsədilə bir çox mühüm tarixi sənədlərlə tanış oldum. Və gəldiyim nəticə bundan ibarət oldu ki, erməni terrorizmi planetdə mövcud olan və kimlərəsə qarşı yönəlmiş terror hadisələrindən fərqli olaraq hər yerdə və hamıya qarşı yönəlmiş bir kabusdur. Məsələn, 1983-cü ilə dair ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinə məxsus bir sənəddə açıq-aydın göstərilirdi ki, 1975-ci ildən 1983-cü ilədək səkkiz il ərzində ermənilər dünyanın 22 ölkəsində 300-dən artıq terror hadisəsi törədiblər. Ayrıca, 1977-ci ildə Moskva metrosundakı partlayış gizlədildiyi üçün amerikalıların hesabatında bu fakt göstərilməmişdi. Tanış olduğum Fransa xüsusi xidmət orqanlarının hesabatında isə Parisin Orli Hava Limanında türklərə qarşı 1983-cü ildə ermənilər tərəfindən törədilmiş terror aktının təfərrüatları ilə tanış olduqda daha dəhşətli faktlar ortaya çıxır. Belə ki, müxtəlif ölkələrdə yaşayan erməni millətindən olan terrorçuların vahid bir mərkəzdən idarə edilərək bu əməli törətmələri cinayətin qlobal miqyasını, təşkilatçılıq və logistik dəstək baxımından nə qədər vahimə doğurduğunu bir daha sübut edir. Buna görə də erməni terrorizminin mahiyyətinə, onun azğınlığına hər yerdə olduğu kimi, Rusiyada da ciddi yanaşılır, onun törətdiyi təhlükələrə qarşı mübarizə yolları axtarılır. Hesab edirəm ki, erməni terrorizminə və onun hər cür havadarlarına qarşı birgə mübarizə aparılıb yox ediləndən sonra Azərbaycanın da işğal olunmuş torpaqlarının sülh yolu ilə geri qaytarılması üçün əlverişli şərait yaranacaq. Bunun üçün də biz tarixçilər, beynəlxalq hüquqşünaslar, yaxud siz jurnalistlər də çox çalışmalı, qaranlıq məqamları üzə çıxarmalı, terrora dayanan erməni ideologiyasını ifşa etməliyik.

***– Bu məqsədlə apardığınız araşdırmalarda hansı yeni nəticələr vardır?***

– Mənə verilmiş tapşırıqlar əsasında arxivlərdə apardığım son araşdırmalarımdan əldə etdiyim nəticələrə əsasən deyə bilərəm ki, erməni millətçilərinin keçmişdə sovet dövləti əleyhinə apardıqları xain fəaliyyətin izlərinin tapılması və ifşa olunması üzrə maraqlı məlumatlar əldə etmişəm. Belə ki, 1950-ci illərə aid arxiv materiallarından İkinci Dünya müharibəsi dövründə alman nasistləri ilə əməkdaşlıq etmiş erməni millətçilərinin axtarılıb üzə çıxarılması ilə əlaqədar bütün Cənubi Qafqazda aparılan əks-kəşfiyyat tədbirləri barədə bir neçə sənəd əldə etmişəm. Belə ki, məlumatlara əsasən həmin dövrdə alman kəşfiyyat orqanı olan Dromedarda general Dro kimi mindən artıq erməni millətindən olan şəxsin xidmət etməsi faktı məlumdur. Bu satqınlar həmin müharibə dövründə sovet ordusu arxasında təxribat işləri ilə məşğul olublar. Qeyd edim ki, erməni xainlərinin ifşa olunması üçün həmin dövrdə bu axtarış tədbirlərinə dövlət təhlükəsizlik orqanlarında yüksək vəzifə tutmuş Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev rəhbərlik edib. Bundan əlavə, 1960-cı illərin əvvəlində də artıq podpolkovnik rütbəsində olan ulu öndər Heydər Əliyev Amerika Kəşfiyyat İdarəsinə xidmət edən erməni daşnak ünsürlərinin ifşa olunması, onların sovet dövlətinə qarşı xəyanətinin üzə çıxarılması üçün çalışırdı. Mən istəyirəm ki, əldə etdiyim bu iki mühüm sənəd Naxçıvanda işıq üzü görsün.

Daha bir maraqlı fakt isə əslində, bugünkü Ermənistan hakimiyyətinin və devrilmiş Köçəryan-Sarkisyan klanının iç üzünü ifşa edir. Belə ki, Njde adı ilə tanınan erməni terrorçusu Ter-Arutunyana İrəvanda heykəl qoyulması terrorizmi özünün dövlət siyasətinə çevirmiş Ermənistanın dünyada öz adı ilə tanınması üçün kifayət qədər tutarlı faktdır. 1918-1920-ci illərdə Zəngəzur, Vedibasar, Qarabağ, Göyçə mahallarında və Naxçıvanda minlərlə dinc azərbaycanlının qatili olmuş belə bir insanın erməncə qəhrəmanlaşdırılması, məncə, əslində, onların gerçək sifətini tanıtmaq üçün kifayətdir. Bir tarixçi kimi mən bu işdə azərbaycanlı dostlarımla hər cür əməkdaşlığa hazıram.

*– Müsahibə üçün sağ olun.*

**✍ Əli CABBAROV**

# Səfir muxtar respublikanın gəzməli-görməli yerləri ilə tanış olub



Aprelin 8-də Tacikistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rüstəm Soli Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyub, ulu öndərin xatirəsini dərin ehtiramla yad edib. Sonra diplomat Heydər Əliyev Muzeyini ziyarət edərək ümummilli liderimizin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıb.

Diplomat səfər çərçivəsində muxtar respublikanın tarixi-mədəni abidələrini, təhsil, səhiyyə ocaqlarını da ziyarət edib.

Duzdağ Fizioterapiya Mərkəzində olan qonağa məlumat verilib ki, dağın altına doğru 300 metr uzanan mərkəzdə yüksək səviyyəli xidmət şəraiti yaradılıb. Son illərdə ölkəmizin müxtəlif regionlarından, habelə dünyanın bir çox yerlərindən bronxial-astma xəstələri buraya gələrək müalicə alırlar.

"Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksini ziyarət edən diplomata bildirilib ki, bu abidə yüz illərdir, insanların üz tutduğu müqəddəs yerlərdən biridir. Hər il buranı Azərbaycanın digər bölgələrindən və xarici ölkələrdən gələn minlərlə zəvvar, turist və qonaqlar ziyarət edirlər.

**✍ Nail ƏSGƏROV**

# Elmi konfrans keçirilib

*Naxçıvan Dövlət Universitetində "Aqrar sahənin inkişaf istiqamətləri" mövzusunda elmi konfrans keçirilib.*

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov muxtar respublikamızda kənd təsərrüfatının inkişafı ilə bağlı görülən işlərdən, bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlərdən danışıb.

Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı naziri Bəhruz Bayramov "Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı və perspektivləri" mövzusunda çıxış edərək muxtar respublikanın müasir sosial-iqtisadi inkişaf səviyyəsində kənd təsərrüfatının da yeni bir inkişaf mərhələsinə qədəm qoyduğunu qeyd edib.

Diqqətə çatdırılıb ki, bütün bunlar aqrar sektorun sürətli inkişafını təmin etməklə yanaşı, kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsini də stimullaşdırıb. Eyni zamanda aqrar sektora göstərilən diqqət onun muxtar respublika iqtisadiyyatında ümumi payının artmasına və əsas gəlirli sahələrdən birinə çevrilməsinə səbəb olub.

Sonra muxtar respublikanın İqtisadiyyat Nazirliyinin əməkdaşı Rəmzi Əlizadə "Dəyişən sosial-iqtisadi mühit və aqrar problemlər", Azərbaycan Baytarlıq Elmi-Tədqiqat İnstitutunun müəllimi, baytarlıq üzrə fəlsəfə doktoru Səhman Bayramov "Qoyunların helmintoz xəstəliklərinə həssaslığı" mövzularında çıxış ediblər.

Konfrans öz işini bölmə iclasları ilə davam etdirib.

**Badəm MƏMMƏDOVA**

# Hüsnan Bəy Fanani: Naxçıvan İslam dünyası üçün çox əhəmiyyətli bir məkandır





***Aprel ayının 8-9-da İndoneziya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hüsnan Bəy Fanani Naxçıvan Muxtar Respublikasında səfərdə olub. Səfər çərçivəsində qonaq muxtar respublikanın tarixi abidələri, istehsal, təhsil, səhiyyə və mədəniyyət müəssisələri ilə yaxından tanış olub.***

Əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərində ucalan abidəsini ziyarət edən İndoneziyanın səfiri Heydər Əliyev Muzeyinin eksponatlarına baxıb.

Sonra Naxçıvan Avtomobil Zavoduna gələn qonağa məlumat verilib ki, burada tələbata uyğun, eləcə də sifariş əsasında 15 modeldə avtomobil istehsal olunur. Hazırda zavodun Naxçıvan şəhərində, Şərur və Culfa rayonlarında ehtiyat hissələrinin satışı mağazaları fəaliyyət göstərir. Ötən il isə Şərur və Culfa rayonlarında texniki xidmət sahələri də yaradılıb.

"Cahan Tobacco" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə tanışlıq zamanı qonağa məlumat verilib ki, hazırda fabrikdə 14 çeşiddə filtrli siqaret istehsal olunur.

Səfir Hüsnan Bəy Fanani "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətinin "Badamlı" zavodunda da olub. Bildirilib ki, "Badamlı" mineral suyu beynəlxalq sərgilərdə yüksək qiymətləndirilir. Burada bütün istehsal prosesi İSO keyfiyyəti idarəetmə sisteminin və qida təhlükəsizliyinin tələblərinə uyğun qurulub.

Diplomat "Gəmiqaya Mebel Fabriki" və "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli cəmiyyətlərində də olub, burada ona bu müəssisələrin istehsal gücü, istehsal edilən məhsulların çeşidi haqqında ətraflı məlumat verilib.

Naxçıvan Biznes Mərkəzinə gələn səfir burada sərgilənən məhsullarla yaxından tanış olub. Məlumat verilib ki, muxtar respublikamızda sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir.

İndoneziya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hüsnan Bəy Fanani səfər təəssüratlarını bizimlə bölüşərək vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası iqtisadiyyat və turizm sahəsində böyük potensiala malik bir diyardır.

"Muxtar respublikaya səfərimin məqsədi Naxçıvanla İndoneziya arasında əlaqələrin formalaşdırılması və daha da genişləndirilməsindən, gələcəkdə hansı sahələrdə əməkdaşlıq imkanlarının mövcud olduğunu öyrənmək və inkişaf etdirməkdən ibarətdir", – deyən səfir onu da qeyd edib ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İndoneziya arasında əlaqələrin genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcək. Diplomat bildirib ki, ölkəmizin, eləcə də qədim diyarımızın görkəmli şəxsiyyətlərini İndoneziyada tanıtmaq arzusundadır.

Hüsnan Bəy Fanani deyib: "Naxçıvanda turizmin inkişafı üçün bütün şərait yaradılıb. Həm də Naxçıvan tarixi, mədəni və dini abidələrlə zəngindir, bunlardan Nuh Peyğəmbərin türbəsi və "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksini qeyd etmək yerinə düşər. Naxçıvan İslam dünyası üçün çox əhəmiyyətli bir məkandır. Təsadüfi deyil ki, Naxçıvan 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilib".

Naxçıvanda təhsil, səhiyyə və mədəniyyət sahələrində də böyük uğurların əldə edildiyini vurğulayan diplomat qeyd edib ki, muxtar respublikada müasir standartlara cavab verən ali təhsil ocaqları, səhiyyə və mədəniyyət müəssisələri mövcuddur. Qədim diyarda yüksək intellektual səviyyəyə malik gənclər yetişir.

**Tural AĞAYEV**

*10 aprel İnşaatçılar Günüdür*

# Muxtar respublikada tikinti-quruculuq işləri uğurla davam etdirilir



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il 16 dekabr tarixli Sərəncamına əsasən hər il aprelin 10-u ölkəmizdə "İnşaatçılar Günü" kimi qeyd olunur.*

İnşaat sektorunun inkişafı, bütövlükdə, ölkənin sosial-iqtisadi tərəqqisinə təkan verən mühüm amillərdən biri hesab edilir. Məhz buna görədir ki, ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi illərdə tikinti-quruculuq işlərinə xüsusi diqqət göstərmişdir. Ötən əsrin 70-ci illərində respublikamızda tikinti sektorunun inkişafı xeyli sürətlənmiş, şəhər və rayonlarda nəhəng istehsal müəssisələri, yüzlərlə yaşayış binası, səhiyyə, mədəniyyət, təhsil obyektləri tikilib istifadəyə verilmişdi. Ümummilli liderin müstəqil Azərbaycana rəhbərliyi dövründə isə tikinti-quruculuq işlərinin həcmi daha da genişlənmiş, inşaat sektorunda fəaliyyət göstərən dövlət təşkilatlarına və özəl şirkətlərə maliyyə dəstəyi artırılmış, uzun illər bu sahədə çalışmış, peşəkarlıq qazanmış inşaatçıları öz ətrafında birləşdirən tikinti təşkilatları mütəşəkkil qurucu qüvvəyə çevrilmişdir. Dahi şəxsiyyətin zəngin dövlətçilik təcrübəsi sayəsində ölkəmizdə milli memarlıq üslubu saxlanılmaqla genişmiqyaslı quruculuq proqramı həyata keçirilmişdir.

Ulu öndərin siyasi xəttinin layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə hazırda Azərbaycanda böyük tikinti-quruculuq işləri aparılır. Son illər qəbul edilən dövlət proqramlarının uğurlu icrası iqtisadiyyatın kompleks inkişafına səbəb olmuş, tikinti işlərinin əhatə dairəsi xeyli genişlənmişdir. Bu da, nəticə etibarilə, yeni iş yerlərinin açılmasına, məşğulluq probleminin aradan qaldırılmasına və əhalinin rifahının yaxşılaşdırılmasına səbəb olmuşdur.

Bu gün Naxçıvan Muxtar Respublikasında yenidənqurma, quruculuq işləri uğurla davam etdirilir, şəhər və rayonlarımızda müasir binalar ucaldılır, tarixi abidələr bərpa olunur. Qabaqcıl dünya təcrübəsini və inşaat texnologiyalarını mənimsəyən tikinti sektoru muxtar respublikaya sürətli quruculuq, səmərəli podratçılıq, yüksək keyfiyyət və müasir dizayn gətirmişdir. Böyük təcrübə sahibi olan muxtar respublika inşaatçıları öhdələrinə götürdükləri işi qısa müddətdə və yüksək keyfiyyətlə başa çatdırır, verilən tapşırıqları vaxtında yerinə yetirirlər. Tikinti-quruculuq işləri aparılarkən müasirliklə milliliyin vəhdəti əsas götürülür, Naxçıvan memarlıq məktəbinin ənənələri yaşadılır. Bütün bunların nəticəsidir ki, Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə aparılan geniş tikinti-quruculuq, abadlaşdırma işləri, yolların və körpülərin tikintisi yaşayış məntəqələrinin simasını tamamilə dəyişmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə muxtar respublikada tarazlı inkişaf təmin olunmuş, investisiya qoyuluşları bütün fəaliyyət istiqamətlərini əhatə etmişdir. Belə ki, 2018-ci ildə muxtar respublikada infrastruktur quruculuğu istiqamətində əsas kapitala 1 milyard 17 milyon 79 min manat vəsait yönəldilmişdir ki, bunun da 947 milyon 798 min manatı və ya 93,2 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür. Aparılan işlər təsərrüfat həyatının bütün sahələrini əhatə edir. Ötən il muxtar respublikada 2114 şagird yerlik 8 tam orta məktəb binası, 7 kənd və 7 yeni xidmət mərkəzi daxil olmaqla, 212 müxtəlif təyinatlı obyekt istifadəyə verilmişdir.

Son 24 ildə muxtar respublikanın quruculuq xəritəsi xeyli genişlənmiş, yeni istehsal müəssisələri, təhsil, səhiyyə, mədəniyyət ocaqları üçün müasir binalar, hərbi təyinatlı obyektlər tikilərək istifadəyə verilmişdir. Belə ki, 1995-2018-ci illərdə bütün maliyyə mənbələrində əsas kapitala yönəldilmiş vəsaitin dəyəri 9 milyard 719 milyon 968 min manat olmuşdur ki, bunun da 8 milyard 633 milyon 785 min manatdan çoxu tikinti-quraşdırma işlərinə sərf olunmuş, 396 elm və təhsil ocağı, o cümlədən 284 ümumtəhsil məktəbi, 491 mədəniyyət, 285 səhiyyə, 52 idman obyekti, 582 inzibati bina, o cümlədən 156 şəhər, qəsəbə və kənd mərkəzləri, 726 mənzil təsərrüfatı üzrə obyekt, 645 kommunal infrastruktur obyekti, 181 körpü, əlil, məcburi köçkün, qaçqın və şəhid ailələri, təbii fəlakətdən zərərçəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 516 fərdi ev, 6661 istehsal, xidmət və digər infrastruktur obyektləri tikilərək, yenidən qurularaq və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir.

Blokadanın yaratdığı problemlərdən biri də enerji resurslarına çıxış imkanlarının məhdud olması idi. Ötən illərdə bu sahədə də intensiv tədbirlər həyata keçirilmiş, infrastruktur müasir standartlara uyğun yenilənmiş, davamlı olaraq yeni elektrik stansiyaları qurulmuşdur ki, bu da, son nəticədə, enerji təhlükəsizliyimizin təmin olunmasına imkan vermişdir. Ötən dövrdə Naxçıvan Modul Elektrik Stansiyası, Biləv Su Elektrik Stansiyası, "Arpaçay-1" və "Arpaçay-2" Su Elektrik stansiyaları, 3 Günəş Elektrik Stansiyası, Heydər Əliyev Su Anbarı üzərində su elektrik stansiyası tikilmiş, Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası yenidən qurulmuşdur. Hazırda Ordubad rayonunda Ordubad Su Elektrik Stansiyasının inşası davam etdirilir.

Müasir yol-nəqliyyat infrastrukturu dövlətin iqtisadi inkişafının əsas göstəricilərindən biridir. Yol-nəqliyyat infrastrukturunun da təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər, bu gün muxtar respublikada aparılan tikinti-quruculuq işlərinin əsasını təşkil edir. Son illər muxtar respublikanın bütün bölgələrində avtomobillərin rahat və təhlükəsiz hərəkəti təmin edilmiş, şəhər və rayon mərkəzlərində müasir yollar çəkilmiş, magistral və yerli əhəmiyyətli yollar yenidən qurulmuşdur. Belə ki, muxtar respublikanın blokada şəraitindən



çıxaraq qonşu ölkələrlə xarici ticarət əlaqələrinin genişləndirilməsində, İpək Yolunun bir hissəsi olan beynəlxalq yük və sərnişin daşımalarında mühüm rol oynayan 87 kilometr uzunluğunda Naxçıvan-Sədərək, 32,4 kilometr uzunluğunda Naxçıvan-Culfa və 88,8 kilometr uzunluğunda Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolları, eləcə də Culfa rayonunda uzunluğu 57,6 kilometr olan, 20 kəndi əhatə edən Çeşməbasar-Boyəhməd avtomobil yolu, Kəngərli rayonunda uzunluğu 39,2 kilometr olan, 5 kəndi əhatə edən Naxçıvan-Sədərək magistralı-Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi avtomobil yolu, Babək rayonunda uzunluğu 25,6 kilometr olan, 13 yaşayış məntəqəsini birləşdirən Hacıvar-Vayxır-Sirab avtomobil yolu, uzunluğu 25,4 kilometr olan, 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu yenidən qurulmuşdur. Son on ildə muxtar respublikada 1198 kilometr uzunluğunda yeni avtomobil yolları salınmış, 50 körpü tikilmiş, 15 körpü isə əsaslı təmir olunmuşdur. Hazırda Culfa-Ordubad magistral avtomobil yolunun yenidən qurulması davam etdirilir.

Yeni obyektlərin inşası ilə yanaşı, tarixi abidələrin bərpası da diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tarixi-mədəni irsimizin qorunub yaşadılması sahəsində həyata keçirdiyi tədbirlər çərçivəsində hər il yeni abidələr bərpa olunaraq tarixi görkəmi özünə qaytarılır. Bu işdə muxtar respublika inşaatçıları fəal iştirak edir, abidələrimiz tarixi görkəmi saxlanılaraq bərpa edilir. Son illər bərpa olunan "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, Nuhun türbəsi, Əlincəqala tarixi abidəsi, Gülüstan türbəsi, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi, buzxanalar, Qarabağlar Türbə Kompleksi, Nehrəm İmamzadəsi, Yengicədəki Şərq hamamı və Qazançı körpüsü Naxçıvanın zəngin tarixi-mədəni irsini özündə yaşatmaqla yanaşı, həm də bu torpaqda qədim tikinti mədəniyyətindən, memarlığın inkişafından xəbər verir.

Muxtar respublikanın tikinti sektorunda çalışan işçilərin sağlamlığının qorunması və tikinti işləri zamanı keyfiyyətin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisində tikinti sektorunda işlərin keyfiyyətlə aparılması, əməyin mühafizəsi və təhlükəsizlik qaydalarına əməl olunması barədə keçirilən müşavirələrdə bu məsələ ilə bağlı aidiyyəti orqanlara konkret tapşırıqlar verilmişdir.

*Peşə bayramlarını qeyd edən muxtar respublika inşaatçıları bundan sonra da əzmlə çalışacaq, yaradıcı əməklərini müstəqil Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının daha da inkişafına sərf edəcəklər.*

***Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi***

# On milyonun sevinci...

*Günlərdir, böyükdən-kiçiyə hər bir azərbaycanlının sevincinin həddi-hüdudu yoxdur. Axı ölkəmizin on milyonuncu sakini dünyaya gəlib... Aprelin 6-da gecə saat $03^{30}$-da Bakı şəhərində doğulub. Ölkə rəhbərimiz də bu sevincə qoşulub, Azərbaycan xalqını on milyonuncu sakin münasibətilə təbrik edib...*

Biz on milyon olduq. Niyə sevinməyək ki? Əhalimizin sayı artır. Bu, ilk növbədə, qonşudakı düşmənimizə gözdağıdır. Qonaqpərvərliyimizdən ərazimizin bir küncündə sığınacaq verdiyimiz qonşularımızın. Bu sığınacağı genişləndirib özlərinə vətən düzəltmək istəyilə tarixən torpaqlarımızda gözü olan qonşularımızın. Qəsbkarlığı ana südü ilə əxz edənlərin 1993-cü ildə işğal etdikləri Azərbaycanın dilbər guşəsi Ağdərə rayonundan məcburi köçkün olan gənc ailənin övladı tamamladı 10 milyonu. Bizə düşmən kəsilən qonşumuzun vətəndaşları aclıqdan, səfalətdən ölkələrini tərk edərkən, ölkə əhalisinin sayı gündən-günə azalarkən bizim sakinlərimizin sayı artır. Hələ dünyanın ayrı-ayrı dövlətlərində yaşayan vətəndaşlarımız vardır ki, müstəqil Azərbaycanımızın azadlığı, sabitliyi, suverenliyi, inkişafı, tərəqqisini, burada insan amilinə verilən qiyməti görüb Vətəninə qayıdıb, yaşamaq üçün məmləkətimizin hər yerdən gözəl olduğunu bəyan ediblər. Niyə də qayıtmasınlar? Belə gözəl Vətən harada var? Çox qədim dövlətçilik ənənələrinə malik, yerinin altı da, üstü də təbii sərvət olan, hər



qarşı gözəlliklər məkanı Vətən. Tarixən bütün dövlət formalarını və tiplərini yaşayan, qədim Manna, Midiya, Albaniya, Atropatena, daha sonra Şirvanşahlar, Eldənizlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar və adlarını sadalamadığım digər böyük dövlətləri, xanlıqları ilə Yaxın və Orta Şərqin dövlətçilik tarixində dərin iz qoyan Vətən. Şərqdə ilk demokratik cümhuriyyətin yarandığı Vətən…

Uca Tanrının ümummilli liderimiz Heydər Əliyev kimi görkəmli siyasi xadimi bəxş etdiyi Vətən. Əsrlərboyu müstəqillik arzusu ilə yaşayıb böyük şəxsiyyətin uzaqgörənliyi ilə vətəndaşları azadlığa qovuşan, 27 yaşlı müstəqil Vətən. Ulu öndərin bəşəriyyətin beşiyi olan nadir ölkələrdən, ən qədim insan məskənlərindən biri adlandırdığı Vətən. Ölkədə yaradılmış möhkəm dövlətçilik prinsipləri ilə hərtərəfli inkişafa, möhtəşəmliyə imza atan, dünyanın azad, suveren, sivil xalqları arasında özünə layiqli yer tutan, hər gün bir kərpic ucalan, gözəlləşən, hüsnünə nəğmələr qoşulan, şeirlər yazılan Vətən…

İgidlər oylağı… Müstəqilliyi, torpaqlarının bütövlüyü uğrunda düşmən qarşısına mərdliklə çıxıb əbədiyyətə qovuşan şəhidləri ilə qürur duyan Vətən. Şəhidlərini ağırlayan-əzizləyən, onların övladlarına, ailələrinə hayan olan, ümumilikdə, hər bir sakininin dərdsərinə ana qayğısı ilə yanaşan Vətən.

Niyə sevinməyək ki?.. On milyon olduq. Ötən illər minlərlə ailələr qurulub ölkəmizdə. Bu ailələr özlərini xoşbəxt hesab edirlər ki, övladları belə bir əmin-amanlıq şəraitində dünyaya göz açır, belə ölkədə böyüyür, Azərbaycan vətəndaşı adını daşıyırlar. Tariximizdən qanına, canına vətənpərvərlik hopan ərlər, ərənlər, xanım qızlar… Bu oğullar, bu qızlar sabahın ziyalıları, ölkəmizin yeni-yeni qurucuları, gələcək inkişafına imza atacaq övladlar olacaqlar.

Doğma Azərbaycanımızda gözəl bir atalar misalı var: "Aslanın erkəyi, dişisi olmaz". On milyonuncu sakinimiz qız övladıdır. Məcburi köçkün Rauf Həsənovla Nigar Ocaqovanın ailəsində doğulan bu qız uşağının gələcəyin Burla xatını, Sara xatını, Tomris anası, Nigarı, Həcəri olacağını kim deməyə bilər? Tarixən qadınlarımız kişilərə bütün işlərdə arxa, dayaq olub, at belində onlarla birlikdə döyüşlərə yollanıblar. Tariximizin böyük şəxsiyyətlərini, ərləri, ərənləri, igidləri, qəhrəmanları, ölməz şəhidləri bir gün doğulan körpə qızcığaz, gələcəyin anası dünyaya gətirib, ana südü ilə ona can verib, Vətəni sevdirib, vətənpərvərlik aşılayıb. On milyonluq xalq olduq. Bu on milyonun hər birini bir ana dünyaya gətirib. Hər birinin "Azərbaycan" adlı bir ana Vətəni var.

Yurdumuzun dağını, dərəsini, çəmənini gəlişi ilə bəzəyən, təbiəti silkələyib qış yuxusundan ayıldan, yaşıl xalısını ellərə sərən, rəngbərəng çiçəkləri ilə hər addımda bir gözəllik yaradan bu gözəl bahar günlərində dünyaya göz açan on milyonuncu sakinimizin qədəmləri bahar qədər uğurlu, ömrü bahar qədər yaradıcı, yenilikçi olsun.

Gün o gün olsun ki, müstəqilliyimizin 50-ci, 100-cü yubileylərini, qüdrətli Milli Ordumuzun səyi ilə torpaqlarımızın yağılardan geri alınmasını qeyd edək. 30-50 milyonuncu sakinlərimizin dünyaya gəlişini bayram edək. Buna haqqın var, Azərbaycan… Sən bütün gözəlliklərə layiqsən – öz qədim tarixinlə, mədəniyyətinlə, dünya arxivlərinin sənin keçmişini təsdiq edən sənədlərlə, əlyazmalarla, bir də dünyanın harasında yaşamasından asılı olmayaraq, səni canlarından artıq sevən vətəndaşlarınla, hər gününlə qürur duyan sakinlərinlə…

**Mətanət MƏMMƏDOVA**

Yurdumuzun nemətləri

# Dadı və şəfalı xüsusiyyəti ilə dünyada məşhur, yurdumuzda bol olan tryufel

*Elə ki yaz gəldi, yağışlar yağmağa başladı, qədim yurdun bərəkətli torpaqlarında bitən şəfalı, min bir dərdin dərmanı olan bitkilər yerli sakinlərin ruzi, qazanc mənbəyinə, sağlam qida kimi isə süfrələrimizin bəzəyinə, ağız ləzzətimizə çevrilir. Bazarların piştaxtalarında cürbəcür çöl pencərləri, göbələk növləri görmək olur. Yurdumuzun saymaqla bitməyən bu nemətləri içərisində biri də var ki, dadı və şəfalı xüsusiyyəti ilə dünyada məşhurdur. Tərkibi sink elementi, əvəzolunmaz amin turşuları və zülalla, vitaminlərlə zəngin olan, "tryufel" adlanan bu bitki çox az ölkələrdə yetişir ki, bu ölkələrin arasında Azərbaycan da var. Müqəddəs Peyğəmbərimiz Məhəmməd əleyhissalam buyurmuşdur ki, bu bitki Musa Peyğəmbərə Cənnətdən hədiyyə kimi göndərilmiş qüdrət halvası növündəndir.*



Bu göbələk Avropa ölkələrində də məşhurdur, kürüdən sonra qiymətinə görə ikinci yerdədir. Hətta XV əsrdə tryufelin rahat tapılıb yığılması üçün müxtəlif heyvanlar da əhliləşdirilibmiş. Bu gün İspaniya, İtaliya və Fransada məşhur olan tryufel göbələyinin 1 kiloqramının qiyməti (növündən və ölçüsündən asılı olaraq) bir neçə min dollara çata bilir. Fransa, İtaliya, İspaniya, ərəb ölkələrində bu göbələkdən, xüsusilə tez-tez istifadə olunur və sevilir. Kilosu 2000 avro dəyərindədir. Tryufel yalnız bahalı elit restoranlarda desert kimi verilir, eyni zamanda gözəl ətri olduğundan az miqdarda yeməklərə qatılır. Fransız aşpazları onu "məhsulların almazı" və ya "kral göbələyi" adlandırırlar. İtaliyada bu göbələk əsasında çox effektli cavanlaşdırıcı kremlər istehsal olunur. Bu kremlərin qiyməti çox bahadır.

Qışın mülayim, yazın yağışlı keçməsi bu il muxtar respublikanın kəndlərində həmin bitkinin bolluğunu yaradıb. Mərkəzi bazarda bu bitkinin satışı ilə məşğul olan insanlarla həmsöhbət olduqda öyrəndik ki, bu il Kəngərli rayonunda, xüsusilə də Şahtaxtı kəndində bu göbələk daha çoxdur.

Bundan sonra üz tutduq həmin kəndə. Yolun ətrafındakı ərazilərdə göbələk toplayan sakinlərdən bir neçəsi ilə rastlaşıb onlarla həmsöhbət olduq. Kənd sakini Rövşən Həsənov gənc olsa da, bu bitkini toplamaqda təcrübəlidir. Onun dedikləri:

– Göbələyin bir növü olan həmin bitkini el arasında "dombalan" adlandırırlar. Səbəb isə onun tam yetişdikdən sonra torpağı şişkin göstərməsidir. Torpaq bir az şişmiş halda olduğunda bilinir ki, orda bitki var. Yaşlıların dediyinə görə, bu bitki, adətən, qumluq təpələrdə yetişir. Hansı yerdə onun otu bitirsə, orada bu bitkidən olur (Bu ot yemlik bitkisinə bənzəsə də, yeməli deyil. Onun tryufellə kök hüceyrələri bir olmasa da, yanaşı bitirlər). Bu bitki yeddi ildən bir daha bol olur. Elə bu il də boldur. Yaz yağışlarının ardından çıxan göbələyin bu növünə daha çox güney yerlərdə rast gəlinir. Yığılması o qədər də asan olmayan tryufelin satışından yaxşı gəlir əldə etmək olur.

Müsahibim onu da deyir ki, Naxçıvan torpağının bu əvəzsiz nemətinə təkcə muxtar respublikanın bazarlarında deyil, ölkəmizin digər bölgələrində də tələbat çoxdur. Bakı şəhərindən gələn qonaqlar gün ərzində yığdığımız göbələyin, demək olar ki, çoxunu alıb aparırlar. Qiymətinə gəldikdə isə irili-xırdalığına görə 5 manatdan 20 manata kimi dəyişir. Bizdə göbələyin qiyməti digər ölkələrlə müqayisədə qat-qat daha aşağıdır.

Bitkinin müalicəvi xüsusiyyətləri öyrənildikdən sonra ona tələbat daha da artıb və qiyməti də bir neçə dəfə qalxıb. Lakin buna baxmayaraq, Azərbaycanda bu delikates məhsulun qiyməti Avropa və ərəb ölkələri ilə müqayisədə çox ucuzdur.

Qədim kəndin yaşlı sakinlərindən biri olan 84 yaşlı Ruqiyyə İmranova isə bu bitkinin faydaları və necə bişirilməsi haqqında danışdı.

Ruqiyyə nənənin söhbəti: – Bu torpağın hər qarışında bitən bitkilər cana dərmandır. Uzun illər nənələrimiz burada yetişən kəklikotunu, yarpızı, nanəcövhəri bir çox xəstəliklərin müalicəsində istifadə ediblər. Bu göbələk növü isə minbir dərdin dərmanıdır. Elə ki yaz gəldi, rəhmətlik anam bizi də yanına alar, çöldə-bayırda bitən pencərlərdən, göbələkdən yığıb gətirərdik. Onların içərisində ən dadlı olanı hamımızın sevdiyi bu göbələk idi. Onu yaxşıca yuyub, qalın mis tavaya tökər, içinə də qovurmanın yağlı tikələrindən azca əlavə edib təndirdəki közlərin üstünə qoyub, qapağını örtərdi. Su tökməzdi, çünki öz suyu çıxanda daha dadlı olur, – deyərdi. Təndirdə közün üstündə buğlana-buğlana bişən göbələklər yağa düşüb yaxşıca qızarardı.Təndirdən təzə çıxmış lavaşla göbələyin dadı quzu kababından da dadlı olardu.

Ruqiyyə nənənin bu söhbətinə qoşulan Qıvraq qəsəbə sakini Süsən xanım deyir: – Hələ lap cavan idim. Uzun illərdir, yurdundan uzaqda olan bir qohumum bizə gələcəkdi. Qonağım həm yaşlı, həm də şəkər və yüksək təzyiqi olan xəstə idi. Nə bişirəcəyim haqqında düşündüm. Üç-dörd gün öncə kəsdiyimiz, axşamdan bişirmək üçün soyuducudan çıxardığım qoyun ətini yenidən buz dolabına yerləşdirib yolumu bazara tərəf saldım. Bazardan nə alım ki, həm dadlı, həm də faydalı olsun, – deyə düşündüm. Bu düşüncə ilə piştaxtaların üzərinə düzülən cürbəcür meyvələrə, tərəvəzlərə nəzər salanda yaşlı bir xanımın kartofabənzər bir bitkini tərifləyə-tərifləyə torbaya yığdığını görüb ona yaxınlaşdım. Ondan öyrəndim ki, bu göbələk növü bütün xəstəliklərin qarşısını almağa qadir vitaminlərlə zəngindir. Şəkər və qan-damar xəstəliklərinin də dərmanıdır.

Bu bitkidən alıb evə gətirdim və bişirdim. Qonağım üçün də bu yemək gözlənilməz olmuşdu. Çox ləzzətlə yeyib: – Ay bala, nubarçalığa çıxasan. Nənəm hey bu göbələkdən bişirər, uşaqlıqda ağız ləzzəti ilə yeyərdik. Onun dadını verdi, – dedi. Ona hər mövsümdə göbələk sovqatı göndərirdim.

Süsən xanım onu da vurğuladı ki, bu bitkinin faydalarından biri və ən önəmlisi də bəşəriyyətin sağalmaz yarasına çevrilən xərçəng xəstəliyinə qarşı faydalı olmasıdır. Davamlı şəkildə tryufeldən istifadə etmək orqanizmimizdə bədxassəli şişlərin yaranmasının qarşısını almaq kimi xüsusiyyətə malikdir.

Həmsöhbətim onu da bildirdi ki, ən yaxşısı göbələyin qabığını soymayıb suya töküb bir az saxlamaqdı. Çünki onun qabığında faydalı vitamin və minerallar var. Suyun içərisində azca qalandan sonra üzərindəki torpaq, qum-çınqıl tamamilə təmizlənir. Ondan sonra onu qaynadıb, ya da qızardıb yemək çox faydalıdır. Təzyiq və şəkər xəstəliyin yoxdursa, quyruqla birlikdə qızardılan, közdə bişən göbələyin dadı damaqda qalır. Yaza qalan qovurma ilə bişirilən göbələyin də dadına söz ola bilməz.

Söhbətə müdaxilə edən Ruqiyyə nənə belə bir məsləhət verdi:

– Mövsümündə bu bitkidən bolluca yemək insanın sağlamlığına yaxşı təsir edir, orqanizmi cavanlaşdırır, bədəni qüvvətləndirir. Şəkər xəstələrinin bunu çiy yeməkləri məsləhətdir. Bu gün cavanları ən çox narahat edən artıq çəkidir. Bax, onun da dərmanı bu göbələkdədir.

Mən də növbəti dəfə yolum bazara düşəndə bu deyilənləri xatırlayıb göbələk satılan piştaxtaya yaxınlaşdım. Bazardakı yaz məhsullarını görərkən öz-özümə fikirləşdim: "Ana təbiət bu yurddan səxavətini əsirgəməyib. Əslində, Uca Yaradan bu dünyanın insanlarının ruzisini özündən əvvəl verib. Onlara min bir naz-nemət bəxş edib. Həmin naz-nemətin qədrini bilib, istifadə etməklə yanaşı, həm də artıb-çoxalması qayğısına qalsaq, süfrələrimizdən əskik etməsək, bar-bərəkətimiz də tükənməz, xəstəlik də nə olduğunu bilmərik.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya ilə birlikdə gömrük orqanlarına işə qəbulla bağlı müsabiqə elan edir

Naxçıvan Muxtar Respublikasının gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqəyə ali məktəbləri gömrük işi, maliyyə, iqtisadiyyat, hüquq, beynəlxalq münasibətlər və idarəetmə ixtisası istiqamətləri üzrə bitirən və yaşı 30-u keçməmiş şəxslər buraxılır.

Namizədlərin gömrük işi üzrə bilik səviyyəsinin, ümumi dünyagörüşünün, gömrük orqanlarında vəzifələrə yararlı və layiqli olmasının müəyyən edilməsi məqsədilə aşkarlıq şəraitində şəffaf üsullarla keçirilən müsabiqə iki mərhələdən – test imtahanı və müsahibədən ibarətdir.

Qanunvericiliyə əsasən Naxçıvan Muxtar Respublikasının gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin test imtahanı mərhələsini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya təşkil edir. Test imtahanında iştirak etmək istəyən şəxslər 10 aprel 2019-cu il tarixdən 10 may 2019-cu il tarixədək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında *(www.dqmk.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq "999000" nömrəli vəzifə kodu üzrə elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməli və aşağıdakı sənədlərin skan olunmuş surətlərini "şəxsi kabinet"ə yükləməlidirlər:

*1. Şəxsiyyət vəsiqəsi*

*2. Ali təhsil barədə diplom (Xarici ali təhsil müəssisələrinin məzunları aldıqları ixtisasların Azərbaycan Respublikası ərazisində tanınması və ekvivalentliyi barədə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamə)*

*3. Əmək kitabçası (son iş yeri barədə qeydin olması şərtilə)*

*4. Hərbi bilet*

*5. 3x4 santimetr ölçüdə fotoşəkil (ağ fonda).*

Namizədlər elektron ərizəni təsdiq etmək üçün müəyyən olunmuş məbləği (70 AZN) "şəxsi kabinet" üzərindən bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ komissiyanın "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz komissiyaya təqdim edilməlidir.

İkili vətəndaşlığı olan şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, tibbi rəyə əsasən fiziki və əqli qüsurlarına görə gömrük orqanlarında işləməyə qadir olmayan, dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara və ya qulluqla bir araya sığmayan hərəkətlərə görə bu orqanlardan xaric edilmiş şəxslər, qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş vətəndaşlar müsabiqəyə buraxılmırlar.

Müsabiqənin test mərhələsində uğur qazanmış namizədlər müsahibə mərhələsində iştirak edir. Müsahibə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində yaradılmış Müsabiqə komissiyası tərəfindən keçirilir. Müsahibənin vaxtı barədə namizədlərə bir həftə əvvəlcədən məlumat verilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində mövcud olan vakant Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi vəzifəsinin tutulması üçün də müsabiqə elan edilir. Müsabiqədə iştirak etmək istəyən namizədlər 10 aprel 2019-cu il tarixdən 10 may 2019-cu il tarixədək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında *(www.dqmk.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq "999023" nömrəli vəzifə kodu üzrə elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər. Müsabiqədə ali təhsil müəssisələrini Jurnalistika, Azərbaycan dili və ədəbiyyat müəllimliyi, Tarix müəllimliyi və Hüquqşünaslıq ixtisasları üzrə bitirən və kütləvi informasiya vasitələri sahəsində jurnalist kimi ən azı 2 il iş təcrübəsi olan şəxslər iştirak edə bilərlər.

***Əlaqə telefonları:***
***(036) 545-65-71 (Naxçıvan Muxtar Respublikası Dövlət Qulluğu Məsələləri üzrə Komissiya)***
***(036) 544-49-72 (Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi)***

## Cüdo birinciliyi başa çatıb



*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları arasında keçirilən cüdo üzrə birinciliyə yekun vurulub.*

Nazirliyin idman cəmiyyətinin zalında keçirilən yarışda 13 komandanın 82 idmançısı mübarizə aparıb. Nazirliyin Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis polkovniki Rəşad Seyidov və digərlərinin çıxışlarından sonra yarışa start verilib.

Bütün rəqiblərinə qalib gələn Xətai Qənbərov (60 kiloqram), Rəşad Həsənov (66 kiloqram), Firuz Ramazanlı (73 kiloqram), Rza İsmayılov (81 kiloqram, hamısı Daxili Qoşunlar), Əli İsmayılov (90 kiloqram, Culfa Rayon Polis Şöbəsi), Allahverdi Qəribov (100 kiloqram, Daxili İşlər Nazirliyi) və Sadiq Qasımov (+100 kiloqram, Daxili Qoşunlar) birinciliyin qalibi olublar.

Komanda hesabında isə müvafiq olaraq ilk üç pillədə Daxili Qoşunlar, Daxili İşlər Nazirliyi və Şərur Rayon Polis Şöbəsinin komandaları qərarlaşıblar.

Sonda qaliblər mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası üzrə 2019-cu ilin mart ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3254846 | 365483 | 366188 | 100,2 |
| 2. | Şahbuz rayonu | 901839 | 97066 | 97228 | 100,2 |
| 3. | Culfa rayonu | 1392228 | 142633 | 142812 | 100,1 |
| 4. | Ordubad rayonu | 1388151 | 145546 | 145724 | 100,1 |
| 5. | Şərur rayonu | 2666745 | 275163 | 275410 | 100,1 |
| 6. | Sədərək rayonu | 308536 | 30854 | 30865 | 100,0 |
| 7. | Babək rayonu | 2652062 | 276718 | 276758 | 100,0 |
| 8. | Kəngərli rayonu | 1062473 | 109062 | 109064 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 10406628 | 1771751 | 1677795 | 94,7 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **24033508** | **3214276** | **3121844** | **97,1** |


ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 254